## 2013-cü ildə Dövlət Statistika Komitəsinin fəaliyyəti haqqında

2013-cü ildə Dövlət Statistika Komitəsi Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş statistik işlər proqramının, habelə "2013-cü il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"nın və "İqtisadi təhlil" üzrə iş planlarının tam həcmdə və nəzərdə tutulmuş vaxtda yerinə yetirilməsini təmin etmişdir. 2013-cü ildə ölkənin əsas inkişaf göstəricilərinə tələb artmışdır ki, bu da statistik işlər proqramının tədbirlərinin sayının artmasını və müşahidələrin mövzularının genişlənməsini şərtləndirmişdir. Bu birinci növbədə 2012-ci ildə ölkə Prezidenti tərəfindən təsdiq olunmuş milli layihələrdə və dövlət proqramlarında, xüsusən də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planlarında öz əksini tapmış vəzifələrin yerinə yetirilməsinin məlumat təminatı ilə əlaqədar olmuşdur.

Keçən il "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı" Dövlət Proqramının, habelə Dövlət Statistika Komitəsinin icraçı kimi çıxış etdiyi digər ("2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair", "2009-2013-cü illərdə ali təhsil sistemində islahatlar üzrə", "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün" dövlət proqramlarının yerinə yetirilməsi də diqqət mərkəzində olmuş və 2013-cü ildə icrasının başa çatması planlaşdırılmış 4 tədbir həyata keçirilmişdir. Ümumiyyətlə, Dövlət Proqramı ilə bağlı 2013-cü ildə 36 iş yerinə yetirilmişdir. Yerinə yetirilən işlər Dövlət Proqramının bütün bölmələrini və yuxarıda sadalanan digər dövlət proqramlarında Dövlət Statistika Komitəsi əsas icraçı kimi nəzərdə tutulmuş bütün işləri əhatə etmişdir ki, bunların nəticəsində də milli hesablar sistemində aktiv və passivlər balansı göstəricilərinin təkmilləşdirilməsinə nail olunmuş, dövlət orqanlarında elektron xidmətlərin tətbiqi səviyyəsinin ölçülməsi üzrə metodologiya, statistik hesabat formaları hazırlanaraq tətbiq edilmiş, Dövlət Statistika Komitəsinin internet səhifəsinə daxil olmuş istifadəçinin istəyinə uyğun çoxölçülü (vaxt indikator-ərazi bölgüsündə) cədvəllər şəklində seçim imkanları yaradılmış, istifadəçilərin statistik məlumatlarla təmin olunması barədə sorğu keçirilmiş, məlumat bazasının strukturunun statistik registrə tam uyğunlaşdırılması məqsədilə təsnifatların aparılmasının proqram vasitələri təkmilləşdirilmiş, keyfiyyətin idarə olunması standartları ilə bağlı statistikanın bütün sahələrində müşahidələrin standart modellər üzrə təhlili həyata keçirilmiş və daxili audit təşkil edilmiş, ilkin statistik məlumatların qəbulu prosesində məlumatların keyfiyyətinin yaxşılaşdırılması məqsədilə təshihedici prosedurların tətbiqi təkmilləşdirilmiş və bu prosesdə keyfiyyətə nəzarət cədvəllərinin tətbiqi və onların "onlayn" rejimində hesabatların elektron qəbulu prosesinə inteqrasiyası həyata keçirilmiş, əkin sahələrinin, mal-qara və quşların tam statistik uçotu aparılmış, ölkə üzrə turizm fəaliyyətinə dair, sosial təminat haqqında, orta məktəbi bitirib ali məktəbə daxil olan oğlan və qızların

nisbətinə dair və gender bölgüsündə illik statistik toplular hazırlanaraq nəşr edilmiş, "Əyani ümumtəhsil məktəblərinin qış mövsümünə hazırlığı, onların maddi texniki bazası və pedoqoji kadrlarla təminatına dair" və "Şəxs əleyhinə zorakılığa dair" statistik müayinələr keçirilmiş, ölkəyə gələn və ölkədən gedən turistlərin sayı, məqsədləri və xərcləri barədə statistik məlumatların əldə edilməsi məqsədilə seçmə statistika müşahidələri təşkil edilmişdir.

2013-cü ildə Dövlət Statistika Komitəsinin fəaliyyətində əsas yerlərdən birini "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn vəzifələr tutmuşdur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Dövlət Statistika Komitəsinin 27.02.2013-cü il tarixli kollegiyasında müzakirə edilmiş və 2013-2020-ci illəri əhatə edən dövrdə görüləcək işlərə dair tədbirlər planı təsdiq olunmuşdur. Tədbirlər planına uyğun olaraq, 2013-cü il ərzində "Nikah bağlayanların və boşananların yaşına görə sayı" və "Ölənlərin yaş qrupları üzrə bölgüsü" haqqında yeni göstəricilər hazırlanaraq rəhbər orqanlara və digər istifadəçilərə çatdırılmış, maliyyə, o cümlədən sığorta fəaliyyəti üzrə daha ətraflı məlumatların əldə edilməsi məqsədilə müvafiq statistik hesabat formalarına yenidən baxılmış, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsinin öyrənilməsi məqsədilə "Əhalinin iqtisadi fəallığına dair" rüblük seçmə statistik müayinə, "İşçilərin sayı, hərəkəti və əmək haqqına dair" 4-əmək aylıq, "Əmək üzrə" 1-əmək və "Dövlət qulluqçularının sayı və tərkibi haqqında" 3-əmək illik rəsmi statistika hesabatlarında müvafiq dəyişikliklər edilmiş, əmək bazarında çalışan iqtisadi fəal, məşğul və işsiz qadın və kişilər, eyni zamanda muzdlu işçilər, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda, o cümlədən dövlət qulluqçusu kimi çalışan rəhbər qadın və kişilər haqqında məlumatlar dövri olaraq əldə edilmiş və təhlil olunaraq Dövlət Statistika Komitəsinin internet səhifəsi vasitəsilə və çap şəklində istifadəçilərə çatdırılması təmin olunmuş, BMT-nin tövsiyələrindən istifadə etməklə "Şəxs əleyhinə zorakılıq" statistika müşahidəsi təşkil edilmiş, "Sığorta (təkrar sığorta) fəaliyyətinin əsas göstəriciləri" və "Müəssisə və təşkilatların fəaliyyətinin əsas göstəriciləri" adlı yeni statistik bülletenlər hazırlanmış, ev təsərrüfatlarında informasiya-kommunikasiya texnologiyalarından istifadəyə dair müşahidə keçirilmiş, yekun məlumatlar dərc edilərək istifadəçilər arasında yayılmış, "Dövlət orqanlarında elektron xidmətlərin tətbiqi səviyyəsinin ölçülməsi"ni təşkil etmək məqsədilə metodologiya və rəsmi statistik hesabat forması hazırlanaraq təsdiq edilmiş, ölkədə sosial müdafiə sisteminin təkmilləşdirilməsinə dair daha dəqiq məlumatlar əldə etmək məqsədilə sosial təminat statistikasına dair kompleks göstəricilər sistemi yenidən işlənərək təkmilləşdirilmiş və təsdiq edilmiş, qeyri-neft məhsullarının dinamikasını və təhlilini aparmaq məqsədilə Dövlət Gömrük Komitəsinin məlumatı əsasında son iyirmi il üzrə qeyri-neft məhsullarının ixracının dinamikası hazırlanmış, 2011-ci və 2012-ci illər üzrə ixrac və idxal olunmuş qeyri-neft məhsullarının strukturu, ixracı və idxalı artmış və azalmış qeyri-neft məhsullarının strukturu hazırlanaraq müqayisəsi və təhlili aparılmış, elektron ticarətin təşkili ilə bağlı internet vasitəsi ilə həyata keçirilən qeyri-neft məhsullarının idxal və ixracına dair statistikanın təşkili məqsədilə Dövlət Gömrük Komitəsinin gömrük yük bəyannaməsinə internetlə sifariş verilərək poçt vasitəsi ilə

idxal və ixrac olunan mallar barədə məlumat daxil edilmiş, 2013-cü ilin altı və doqquz ayı üzrə internet vasitəsi ilə sifariş verilərək idxal-ixrac olunmuş malların dəyəri və strukturu əldə edilmiş, satışın ümumi həcmində yerli, idxal malları haqqında məlumat əldə etmək üçün ölkə ərazisində ticarətlə məşğul olan hüquqi və fiziki şəxslərin təqdim etdikləri aylıq, rüblük, illik statistika hesabatı və müayinə formaları təkmilləşdirilərək onlara yerli istehsal və idxal mallarının satışını əks etdirən göstəricilər daxil edilmiş, ticarət obyektlərində satılmış istehlak mallarının həcminin hesablanması məqsədilə statistik müayinələrin aparılması təşkil edilmiş, ölkənin bütün şəhər və rayonları üzrə hüquqi və fiziki şəxslərin ticarət obyektlərində, həmçinin bazar və yarmarkalarda fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2013-cü ilin altı və doqquz ayı üzrə əhaliyə satılmış yerli istehsal, idxal və qeyri-neft məhsullarının həcminə dair yekun göstəricilər hesablanmış və nəticələr barədə məlumatlar Nazirlər Kabinetinə təqdim olunan təhlili məruzələrə daxil edilmiş, topdansatış qiymət indekslərinin hesablanması üçün metodologiya hazırlanaraq ondan topdansatış qiymətlərə dair statistik müayinə keçirilməsi və indekslərin hesablanmasında istifadə edilmiş, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Atmosferə atılan istilik effekti yaradan qazların miqdarının hesablanması" metodologiyasına əsasən, müvafiq əmsallardan istifadə etməklə 2012-ci ilin yekunu üzrə ayrı-ayrı yanacaq növlərinin yandırılması nəticəsində və stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan karbon qazının ($CO_2$) həcmi hesablanmış, alınmış nəticələrdən atmosferə atılmış istilik effekti yaradan qazların miqdarının ölkənin ÜDM-nin istehsalındakı payının qiymətləndirilməsi üçün hesablamalarda istifadə olunmuş, ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafın əks etdirilməsi üçün əhalinin içməli su təchizatı və sanitariya sistemindən istifadəsi haqqında məlumatların əldə olunması məqsədilə "Su kəmərlərinin və kanalizasiyanın işinə dair" rəsmi statistika hesabatı formasına yenidən baxılaraq zəruri göstəricilər əlavə edilmiş, rəsmi statistika istifadəçilərinin statistik məlumatlara olan tələbatının öyrənilməsi və Dövlətstatkomun veb-səhifəsinin qiymətləndirilməsinə dair onlayn rejimində istifadəçilər arasında sorğu anketi veb səhifədə yerləşdirilmiş, statistikada baş verən yeniliklər və beynəlxalq standartların öyrənilməsi ilə bağlı işçilərin biliyinin artırılması və maarifləndirilməsini təmin etmək məqsədilə yerli statistika orqanları ilə məsafədən təhsil yolu ilə texniki dərslərin keçirilməsi təşkil edilmiş və işlərin yaxşılaşdırılması məqsədilə Komitənin Aparatında işçilər arasında sorğu təşkil edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın yerinə yetirilməsi də 2013-cü ildə Dövlət Statistika Komitəsinin fəaliyyətində önəmli yer tutmuşdur. 2013-cü ildə Komitədə Aparatın əməkdaşlarının iştirakı ilə "İnformasiya azadlığının təmin edilməsi" mövzusunda treninq keçirilmiş, 2012-ci ilin yekunu üzrə Dövlət Statistika Komitəsinin fəaliyyəti barədə hesabat ictimaiyyətə çatdırılması məqsədilə Komitənin internet səhifəsində yerləşdirilmiş, həmçinin 2013-cü ilin yanvar ayında KİV nümayəndələri üçün mətbuat konfransı keçirilmişdir. Dövlətstatkomun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının vətəndaşlar arasında təşviqi məqsədilə "Sahibkar statistika ilə bağlı nəyi bilməlidir" adlı məlumat kitabçası

hazırlanmış və sahibkarlara paylanması üçün yerli statistika orqanlarına göndərilmiş, sahibkarlıq subyektləri üçün suallar tərtib edilərək Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Komitənin şöbələrinin iştirakı ilə "Açıq qapı" gününün keçirilməsi qrafiki hazırlanmış və bu tədbirin icrası məqsədi ilə keçən ilin iyun ayında Dövlət Statistika Komitəsində ictimaiyyət, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Açıq qapı" günü keçirilmişdir. Statistik məlumatlardan səmərəli istifadəni, lazım olan göstəricilərin statistik nəşrlərdə və internet səhifəsində axtarışının asanlaşdırılması, eləcə də statistik göstəricilərin hesablama metodologiyaları haqqında izahatların verilməsi, elektron xidmətlər barədə ictimai təqdimatların keçirilməsini təmin etmək məqsədilə Komitədə statistik məlumatların istifadəçiləri və eləcə də Komitənin tabeliyində olan və ya onun strukturuna aid olan qurumların əməkdaşlarının iştirakı ilə seminarlar və kurslar təşkil olunmuşdur. İl ərzində Aparatın müxtəlif şöbələri tərəfindən təşkil olunmuş 10 seminarda aidiyyəti təşkilatlardan 130 nümayəndə iştirak etmişdir. Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə hüquqi və fiziki şəxslərə tətbiq edilən inzibati cərimələrin elektron şəkildə ödənilməsi qaydaları hazırlanaraq Dövlət Statistika Komitəsinin 03.12.2012-ci il tarixli, 97/07 nömrəli qərarı ilə təsdiq olunaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. İctimaiyyətin məlumatlandırılması işinin daha da təkmilləşdirilməsi məqsədilə 2013-cü ildə Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin (**www.stat.gov.az**) mütəmadi olaraq yenilənmək şərti ilə statistik məlumatlara və nəşrlərə dair bölmələr daha da təkmilləşdirilmiş, yeni məlumatlar daxil edilərək istifadəçilərin ixtiyarına verilmiş, ictimaiyyətlə əlaqələrin gücləndirilməsi məqsədilə yaradılmış "qaynar telefon xətti" fəaliyyətini davam etdirmişdir. "Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və onların həlli üçün tədbirlərin müəyyən edilməsi və bu işlərin elektron qaydada həyata keçirilməsinin təşkili" tədbirinin icrası ilə bağlı "Ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə Dövlət Statistika Komitəsi arasında qarşılıqlı münasibətlərə dair" tərtib edilmiş sorğu anketindən ibarət olan "Sahibkarlar üçün 7 sual" bölməsi hazırlanaraq Komitənin rəsmi internet saytında yerləşdirilmişdir. Həmçinin sahibkarlardan qəbul edilən rəsmi statistika hesabatlarının elektron formada qəbulu məqsədilə bütün statistik hesabat formalarının online rejimdə elektron formada qəbuluna imkan verən proqram vasitələri hazırlanaraq istifadəyə verilmiş, bu proqram vasitələrində məlumatın məxfiliyinin və etibarlılığının artırılması üçün texniki və proqram vasitələrinin verdiyi bütün imkanlar nəzərə alınmış, məlumatın daha sürətlə təqdim edilə bilməsi üçün imkanlar yaradılmışdır. Dövlət satınalmaları üzrə müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarının qorunması məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən dövlət satınalmaları ilə bağlı qanunvericiliyə uyğun olaraq bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Dövlət Statistika Komitəsi üçün hesabat blanklarının çapı və statistik məcmuələrin nəşri işlərinin satınalması açıq tender üsulu ilə həyata keçirilmiş, bu məqsədlə tender komissiyası tərəfindən "Respublika" qəzetində

26.12.2012-ci il və 16.01.2013-cü il tarixlərində elanlar verilmişdir. Verilmiş elanlar həmçinin Dövlət Statistika Komitəsinin və Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi saytında yerləşdirilmişdir.

Rəsmi statistika müşahidələrinin nəticələri üzrə formalaşdırılan məlumatlarla ayrı-ayrı statistik məlumat istehsalçıları tərəfindən ölkənin idarəetmə orqanlarına və beynəlxalq təşkilatlara təqdim olunan məlumatlar arasındakı uyğunsuzluqları aradan qaldırmaq məqsədilə məlumatların formalaşdırılmasının əlaqələndirilməsi məsələləri üzrə işlər davam etdirilmişdir. Bununla əlaqədar olaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli, 509-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli, 802 nömrəli Fərmanının 6-cı bəndini icra etmək məqsədilə, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi arasında qeyri-dövlət sektorunun müxtəlif fəaliyyət sahələrində peşələr və vəzifələr üzrə orta aylıq əmək haqqı məbləğinə dair şəhər və rayonlar üzrə statistik göstəricilərin və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini təqdim edən vergi ödəyicilərinin məlumatlarının elektron mübadiləsi haqqında 05.02.2013-cü ildə Razılaşma imzalanmışdır ki, bu da istər iqtisadi, istərsə də makroiqtisadi statistikanın keyfiyyətinin yüksəldilməsinə, İƏİT-in tələblərinə uyğun olaraq müəssisələrin demoqrafiyasının formalaşdırılmasına və qeyri-dövlət sektorunun müxtəlif fəaliyyət sahələrində peşələr və vəzifələr üzrə orta aylıq əmək haqqına dair məlumatları əldə edilməsinə imkan vermişdir.

Ölkənin sosial-iqtisadi inkişafını obyektiv və vaxtında əks etdirmək məqsədilə sahə statistikasının inkişafı və təkmilləşdirilməsi həyata keçirilmişdir.

Milli hesablar üzrə işlər MHS göstəricilərinin keyfiyyətinin və düzgünlüyünün yüksəldilməsinə, metodologiyanın İƏİT-in tələblərinə və tövsiyələrinə uyğunlaşdırılmasına yönəldilmişdir. İl ərzində dövlət idarəetməsi və maliyyə sektorlarının məlumatlarının alt sektorlar üzrə işlənməsi təmin edilmiş, digər institusional sektorlar üzrə məlumatların işlənilməsi sistemi təkmilləşdirilmiş, "ehtiyat və istifadə" cədvəllərinin sadələşdirilmiş sxem üzrə illik dövriliklə cari və müqayisəli qiymətlərlə qurulması sahəsində işlər təkmilləşdirilərək davam etdirilmiş, əsas kapitalın istehlakının qiymətləndirilməsi üçün fasiləsiz inventarlaşma metodu əməli işdə tətbiq olunmuş, müəssisə və təşkilatlar tərəfindən təqdim edilən hesabatlarda məlumatların təhrif olunması səviyyəsinin qiymətləndirilməsinə dair xüsusi müayinə keçirilmiş, əmək ehtiyatları balansının qurulması və qeyri-leqal fəaliyyətin qiymətləndirilməsi sahəsində işlər davam etdirilmiş, hesablama üsullarının və məlumat mənbələrinin təkmilləşdirilməsi həyata keçirilmişdir. Bütün bu işlər ölkədə MHS-2008-in müvəffəqiyyətlə tətbiqinə və Milli hesablar statistikası üzrə göstəricilərin təkmilləşdirilməsinə imkan vermişdir. MHS-2008-in maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları göstəricisinin uçotuna dair tövsiyələri 2011 və 2012-ci illərin yekunları üzrə ÜDM-in hesablanmasında nəzərə alınmaqla MDB ölkələri arasında Dövlət Statistika Komitəsi birinci dərc etdirmişdir.

Azərbaycanda milli hesabların inkişaf səviyyəsi Dövlət Statistika Komitəsinə əvvəllər olduğu kimi, 2013-cü ildə də Dünya Bankı tərəfindən təşkil edilmiş ÜDM-in beynəlxalq müqayisələrində, ÜDM-in ölkələrarası müqayisəsinin metodologiyasının və təcrübəsinin təkmilləşdirilməsində fəal iştirakına imkan vermişdir. Dövlət Statistika Komitəsi 2012-cü ildə investisiya malları, tikinti materialları, istehlak malları, qeyri-bazar xidmətləri və mənzil kirayəsi üzrə məlumatlar toplamış və MDB Dövlətlərarası Statistika Komitəsinə göndərmişdir.

Əmək statistikası sahəsində "Azərbaycan Respublikasının Məşğulluq strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə, ölkənin əmək bazarında baş verən prosesləri izləmək üçün Beynəlxalq Əmək Təşkilatının tövsiyələri nəzərə alınmaqla, ev təsərrüfatlarında həyata keçirilən "Əhalinin iqtisadi fəallığına dair" statistik müşahidənin əhatə dairəsi artırılaraq 2013-cü ilin əvvəlindən ölkədə olan mövcud ev təsərrüfatlarının 1 faizinə (19882-ə) çatdırılmışdır ki, bu da iqtisadi fəal əhali, o cümlədən məşğul və işsiz əhali, iqtisadi qeyri-fəal əhali və s. haqqında daha dəqiq, obyektiv və keyfiyyətli məlumatların əldə edilməsinə imkan vermişdir.

Əsas vəzifələrdən biri - qiymətlərin dinamikasının hərtərəfli işıqlandırılması olmuşdur. İl ərzində istər istehlak qiymətləri, istərsə də istehsalçı qiymətləri haqqında məlumatların aylıq dövrilikdə hazırlanaraq istifadəçilərə catdırılması işi davam etdirilmişdir. Ölkədə əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatının ödənilməsi üçün ticarət şəbəkələrinin, o cümlədən topdansatış ticarətin sürətlə artması topdansatış məhsullarının qiymət indekslərinin hesablanması, habelə topdansatış ticarətdə baş verə biləcək hər hansı artım və ya azalma tendensiyasının izlənməsi və pərakəndə satış ticarətə təsiri barədə məlumatların əldə olunmasını zəruri etmişdir. Bu məqsədlə, hesabat ilində "Topdansatış məhsullarının qiymət indekslərinin hesablanmasına dair metodoloji izahlar" hazırlanmış və bu sahədə qiymət indekslərinin hesablanması həyata keçirilmişdir.

Müasir dövrdə enerjiyə qənaəti və energetika effektvliliyinə marağı nəzərə alaraq, Dövlət Statistika Komitəsi 2013-cü ildə də energetika statistikasının göstəricilərinin metodologiyasının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində işləri davam etdirmişdir.

Daxili ticarət statistikasında yerli istehsal mallarının istehsalının artırılması və ölkə əhalisinin idxal mallarından asılılığının azaldılması prosesinin statistik izlənməsi məqsədi ilə regionlar üzrə ticarət şəbəkələrində satılmış yerli istehsal və idxal mallarının həcminə dair göstəricilər əldə edilmişdir ki, bu da ölkə əhalisinin yerli istehsal malları ilə təmin edilməsinin, həmçinin əhalinin idxal mallarından asılılıq səviyyəsinin öyrənilməsinə imkan vermişdir.

İnformasiya texnologiyalarından maksimum istifadə edərək insanların rahatlığının təmin edilməsinin statistik öyrənilməsi həyata keçirilmiş və elektron idxal və ixraca dair göstəricilər əldə edilmişdir. Bunun nəticəsində ölkədə müasir informasiya texnologiyasının inkişaf etməsi, əhalinin rahatlığının təmin edilməsi məqsədilə əhalinin onlayn rejimi vasitəsi ilə sifariş verərək yaşadığı ünvanda ərzaq, qeyri-ərzaq malları əldə etməsi inkişafına dair məlumatlar əldə edilmişdir.

2013-cü ildə Azərbaycan statistikasının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri ölkədə istifadə olunan statistik metodologiyanın daha da inkişaf etdirilərək beynəlxalq tövsiyə və standartlara uyğunlaşdırılması və iş təcrübəsində tətbiqi olmuşdur. Dövlət Statistika Komitəsi tərəfindən statistikanın bütün sahələri üzrə beynəlxalq standartlara əsaslanan, eyni zamanda ölkə iqtisadiyyatının və qanunvericiliyinin xüsusiyyətlərini əks etdirən 150 metodoloji material hazırlanmışdır ki, onlardan da 111-i hesabat formalarının tərtib olunmasına, 39-u isə müayinələrin keçirilməsinə, hesablamaların aparılmasına, göstəricilər sisteminin tərtib olunmasına və digər məsələlərə həsr olunmuşdur. Hazırlanan metodoloji materiallar milli hesablar sistemi (MHS), məşğulluq və işsizlik, xarici iqtisadi fəaliyyət, maliyyə və qiymət statistikası kimi bir sıra müxtəlif sahələri və problemləri əhatə edir. Bu metodoloji materiallardan "Metaməlumatlar konsepsiyası, standartlar, modellər və registrlər", "Statistik metaməlumatlar korporativ konteksdə", "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin informasiya texnologiyalarının inkişafı konsepsiyası", "Statistik biznes-prosesin ümumi modeli", "Balıqçılıq sahəsində gizli və qeyri-formal fəaliyyətin qiymətləndirilməsi", "Metaməlumatlar sisteminin statistik məlumatlar bazasına inteqrasiyası", "Statistikanın əsas sahələri (məhsulları) üzrə statistika prosesləri", "Topdansatış məhsullarının qiymət indekslərinin hesablanması", "Yerli statistika orqanlarının fəaliyyətinin qiymətləndirilməsi qaydaları", "Xarici ticarət dövriyyəsinin indekslərinin hesablanması", "Statistik vahidlərin Dövlət registrində baş verən dəyişikliklərin tədqiqi konsepsiyası" və s. göstərmək olar.

Metodologiyanın yeniləşdirilməsi, təkmilləşdirilməsi və beynəlxalq tövsiyələrə uyğunlaşdırılması məlumatların müqayisəliliyinin təmin olunmasına və beynəlxalq təşkilatların və digər ölkələrin statistika xidmətləri ilə statistik informasiyaların qarşılıqlı mübadiləsinə imkan vermişdir.

Statistik müşahidələrin təkmilləşdirilməsi, rəsmi statistika məlumatlarının keyfiyyətinin artırılması və onun beynəlxalq müqayisəliliyinin təmin olunması məqsədilə metodoloji materialların işlənməsi ilə yanaşı, rəsmi statistika hesabatlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi də diqqət mərkəzində olmuşdur. İl ərzində 7 yeni rəsmi statistika hesabatı forması təsdiq edilmiş, 14 hesabat forması ləğv edilmiş və 105 hesabat formasına yenidən baxılaraq, göstəricilərində dəyişikliklər edilmişdir. Respondentlərə düşən statistika yükünün azaldılması istiqamətində aparılan işlərin nəticəsində rəsmi statistika hesabatları 7 vahid azalaraq 2014-cü il yanvarın 1-i vəziyyətinə 268 olmaqla, onlardakı göstəricilərin sayı 120459, o cümlədən statistika orqanları tərəfindən icmallaşdırılan rəsmi statistika hesabatları 153 və onlardakı göstəricilərin sayı 39299 olmuşdur.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1-ci maddəsinin 1.0.22-ci bəndinin icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunan texniki normativ hüquqi aktların (dövlət statistika müşahidələrinin formaları və onların doldurulmasına dair göstərişlər, statistik göstəricilərin formalaşdırılması və hesablanması qaydaları, dövlət statistika müşahidələrinin təşkil edilməsinə və aparılmasına dair təlimatlar, idarədaxili hesabat formaları və onların doldurulmasına dair göstərişlər) Ədliyyə Nazirliyində yaradılmış

Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrində qeydiyyata alınması istiqamətində işlər davam etdirilmiş və hesabat dövründə 115 normativ hüquqi akt, o cümlədən 107 rəsmi statistik hesabat forması (01.01.2014-cü il vəziyyətinə olan hesabat formalarının ümumi sayından 164-i və ya 61 faizi) Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Beynəlxalq təsnifatlara uyğunlaşdırılmış mili təsnifatların işlənməsi, yayılması və tətbiq olunması istiqamətində işlər davam etdirilmişdir. Dövlət Statistika Komitəsi tərəfindən BMT-nin Avropa İqtisadi Komissiyasının hazırladığı təsnifata uyğun olaraq, hesabat dövründə milli "Statistik fəaliyyət", həmçinin 2007-ci ildən keçən dövr ərzində ölkənin rayon və şəhərlərinin inzibati ərazi bölgüsündə baş vermiş dəyişikliklər nəzərə alınmaqla "İnzibati ərazi bölgüsü" təsnifatları hazırlanmış, maraqlı təşkilatlar və Statistika Şurasının üzvləri ilə razılaşdırılmaqla kollegiyada təsdiq edilmiş, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilərək istifadəçilərə çatdırılmış və Dövlət Statistika Komitəsinin veb səhifəsində yerləşdirilmişdir. Beləliklə, 01.01.2013-cü il vəziyyətinə Azərbaycanda milli statistik təsnifatların sayı 31-ə çatmışdır ki, bunlardan 25-i beynəlxalq təsnifatlara uyğundur. Bunlarla yanaşı təsnifat istifadəçilərinin işini yüngülləşdirmək məqsədilə "İnzibati ərazi bölgüsü təsnifatının 2013-cü ilədək qüvvədə olan (2007-ci il nəşri) variantı ilə yeni variantı (2013-cü il nəşri) arasında keçid təsnifatı (açarı)", "Məhsulun (mal və xidmətin) statistik təsnifatı"na izahların 3-cü və 4-cü cildləri hazırlanmış, müvafiq qaydada təsdiq edilmiş və istifadəçilərin ixtiyarına verilmişdir. Keçən il olduğu kimi, təsnifatların hazırlanması və təcrübədə tətbiqi sahəsində Dövlət Statistika Komitəsinin işi cari ildə də MDB ölkələrinin statistika orqanları arasında ilk üçlükdə yerləşir.

Rəsmi statistikada müəssisələr registrinin aparılması və istifadəsi üzrə beynəlxalq standartların tələblərinə cavab verən, böyük statistik informasiya ehtiyatlarına malik olan, müayinələrin keçirilməsində əsas alət olan, iqtisadi siyahıyaalmaların və seçmə müayinələrin aparılmasına imkan verən Statistik vahidlərin Dövlət registrinin daha da inkişaf etdirilməsi sahəsində işlər davam etdirilmiş, il ərzində hüquqi və fiziki şəxslərin yaradılması və ləğvi barədə Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında Statistik vahidlərin Dövlət registrinin aktuallaşdırılması və onun statistik işlər üçün aktual vəziyyətdə saxlanması istiqamətində müntəzəm işlər həyata keçirilmişdir. 2014-cü il yanvarın 1-i vəziyyətinə SVDR-də statistik vahidlərin sayı 540 mindən, əhali təsərrüfatlarının sayı isə 850 mindən çox olmuşdur.

Hesabat dövründə Dövlət Statistika Komitəsinin fəaliyyəti, hər şeydən əvvəl, statistik informasiya istifadəçilərinin bütün kateqoriyalarının tələbatlarının ödənilməsinə yönəldilmişdir. Nazirlər Kabinetinin 2 mart 2009-cu il tarixli, 48s nömrəli sərəncamına uyğun olaraq, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı" üzrə 2012-ci ildə görülmüş işlər haqqında hesabat hazırlanaraq ölkə Prezidentinə və Nazirlər Kabinetinə təqdim edilmişdir.

İl ərzində bütün istifadəçilərin sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət haqqında tam, düzgün və vaxtında olan statistik məlumatlarla təmin olunmasına xüsusi

fikir verilmişdir. Bu işlər arasında iqtisadi təhlil işləri xüsusi yer tutmuşdur. Statistik və analitik informasiyaların hazırlanması və yayılması çərçivəsində il ərzində Dövlət Statistika Komitəsinin Aparatı və onun yerli statistika orqanları tərəfindən ölkənin və onun regionlarının sosial-iqtisadi vəziyyəti üzrə 1899 təhlili məruzə, 84 adda ekspres-məlumat və 77 adda mətbu-məlumat hazırlanmışdır. Təhlili materialların hazırlanmasında Dövlət Statistika Komitəsinin məlumatları ilə yanaşı, digər rəsmi statistik məlumat istehsalçılarının məlumatlarından da istifadə edilmişdir. Hazırlanan məruzələrdə ölkənin və onun regionlarının sosial-iqtisadi inkişafı, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı" və "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı" Dövlət Proqramlarının yerinə yetirilməsi, məhsul istehsalı və xidmətlərin göstərilməsi üzrə xərclərin strukturu, yerli özünüidarəetmə orqanlarının daxilolmaları və büdcə vəsaitlərinin istifadəsi, sənayedə istehsal ehtiyatlarından istifadə, müəssisə və təşkilatların iqtisadi fəaliyyətinin əsas nəticələri, enerji məhsullarından istifadə, inşaat kompleksinin inkişafı, məhsul istehsalı və xidmət obyektlərinin istifadəyə verilməsi, sənayenin hasilat bölməsinin fəaliyyəti, inşaat kompleksinin və yeni istehsal və xidmət obyektlərinin istifadəyə verilməsi, əsas növ bitkiçilik məhsullarının istehsalı, mineral gübrələrdən istifadə, istehlak bazarında qiymətlərin dəyişməsi, xarici ticarət əlaqələri, büdcədən maliyyələşdirilən müəssisə və təşkilatlarda istifadə edilmiş elektrik və istilik enerjisi, təbii qaz, su və rabitə xidmətləri, yeni iş yerlərinin yaradılması, ölkədə demoqrafik vəziyyət, əhalinin mənzil şəraiti, ölkədə sosial təminat, mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti, turizm müəssisələrinin fəaliyyəti, informasiya və kommunikasiya texnologiyalarından istifadə, dəmiryolu nəqliyyatı infrastrukturunun inkişafı, işçilərin peşə və vəzifələr üzrə orta aylıq əmək haqqı və işlədikləri vaxt, ali və orta ixtisas təhsil müəssisələrinin fəaliyyəti, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti, əhalinin sağlamlığı, sənaye, tikinti, nəqliyyat və rabitə müəssisələrində əmək şəraitinin vəziyyəti, ətraf mühitin vəziyyəti və bir sıra digər aktual məsələlər üzrə xarici iqtisadi əlaqələr, maliyyə vəziyyəti, real bölmə, sosial sahə, demoqrafik və ekoloji vəziyyət əhatə edilmişdir.

Dövlət idarəetmə orqanları tərəfindən sosial-iqtisadi inkişafla bağlı qərarların qəbul edilməsində xüsusi əhəmiyyətə malik olan statistik bülletenlərin hazırlanması hesabat dövründə də davam etdirilmişdir. İl ərzində yığılmış məlumatlar əsasında 47 adda (il ərzində 5,6 min nüsxə) statistik bülleten hazırlanaraq istifadəçilərə çatdırılmışdır.

2013-cü ildə statistik işlər proqramına uyğun olaraq hüquqi və fiziki şəxslərdən toplanmış və ölkənin digər statistik məlumat istehsalçılarından alınmış statistik məlumatlar əsasında dərc olunması üçün müxtəlif kəsimlərdə məlumatların hazırlanması həyata keçirilmiş, hər ay istər ölkə üzrə, istərsə də ayrı-ayrı rayon və şəhərlər üzrə "Sosial, iqtisadi inkişaf"a dair məruzələr hazırlanaraq istifadəçilərə göndərilmişdir. Bu məruzələrdə ümumi daxili məhsulun istehsalı və istifadəsi, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyatın inkişafı, ölkənin maliyyə vəziyyəti, dövlət büdcəsinin icrası, əhalinin pul gəlirləri və xərcləri və bir sıra digər göstəricilər öz əksini tapmışdır.

Dövlət Statistika Komitəsinin fəaliyyətində əsas yerlərdən birini tutan rəsmi statistik nəşrlərin mövzularının genişləndirilməsi üzərində müntəzəm iş aparılmış və onların sayı 36-ya çatdırılmışdır. Ölkədə baş verən dəyişikliklərə uyğun olaraq, məcmuələrin məzmununda dəyişikliklər aparılmış, onların tərkibinə yeni bölmələr və göstəricilər əlavə edilmiş, köhnəlmiş (əhəmiyyətini itirmiş) anlayışlar, təriflər və göstəricilər çıxarılmışdır. Hesabat dövründə nəşr edilən məcmuələr "Xalqa həsr olunan illər-90", "Azərbaycan 10 ildə" (buklet), "Azərbaycanın statistik göstəriciləri", "Azərbaycan və Rusiya", "Azərbaycan və MDB ölkələri", "Azərbaycanın regionları", "Azərbaycanın demoqrafik göstəriciləri", "Azərbaycanın milli hesabları", "Azərbaycanın energetikası", "Azərbaycanda qadınlar və kişilər", "Azərbaycanda uşaqlar", "Azərbaycanda səhiyyə, sosial təminat və mənzil şəraiti", "Azərbaycanda təhsil, elm və mədəniyyət", "Azərbaycanda informasiya cəmiyyəti", "Azərbaycanda kiçik sahibkarlıq", "Azərbaycanda telekommunikasiya və poçt", "Əmək bazarı", "Azərbaycanın xarici ticarəti", "Azərbaycanda turizm və xidmət", "Azərbaycanda qiymətlər" və digər müxtəlif sahələrə dair mövzulara həsr olunmuşdur.

Statistik məlumatların müvəffəqiyyətlə yayılmasında, elm adamlarının, tələbələrin zəruri məlumatlarla təmin olunmasında xüsusi rola malik olan Dövlət Statistika Komitəsinin kitabxanası da öz fəaliyyətini davam etdirmişdir. Kitabxananın fonduna beynəlxalq təşkilatlar və dünya ölkələrinin statistika xidmətləri tərəfindən buraxılan məhsullar müntəzəm olaraq daxil olur. Hazırda Komitə 4931 adda 7788 nüsxədən ibarət kitabxana fonduna malikdir. 2013-cü il ərzində kitabxananın xidmətindən 2300 oxucu istifadə etmişdir.

2013-cü ildə Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilmiş məlumat bazasının aparılması və müasirləşdirilməsi istiqamətində daimi iş həyata keçirilmişdir. Hazırda məlumat bazası özündə Azərbaycanın iqtisadi vəziyyətini, beynəlxalq əlaqələrini, makroiqtisadi meyllərini, istehsal proseslərini, iqtisadiyyatda struktur dəyişikliklərini əks etdirən əsas sosial-iqtisadi göstəricilər üzrə 10 minə yaxın cədvəli, təhlili və metodoloji materialları əhatə edir. İnternet şəbəkəsində Dövlət Statistika Komitəsinin Veb səhifəsi müntəzəm olaraq yeniləşdirilir. 01.01.2014-cü il vəziyyətinə məlumatlar bazası da daxil olmaqla, səhifənin məlumat həcmi 12,5 Gb təşkil etmişdir. 2013-cü ildə Dövlət Statistika Komitəsinin internet səhifəsindən hər gün orta hesabla 1502 istifadəçi bəhrələnmişdir. Veb səhifəyə il ərzində 548,4 min nəfər daxil olmuşdur ki, onlardan da 523,2 nəfəri Azərbaycandan, qalan hissəsi isə digər dünya ölkələrindən olmuşdur. Baza məlumatlarından əksər Avropa və Asiya ölkələrinin, ABŞ, Kanada, Argentina, Avstraliya, Braziliya, Kolumbiya, Peru kimi 126 ölkənin əhalisi istifadə etmişdir.

Məlumat istifadəçiləri ilə iş sahəsində kütləvi informasiya vasitələri də mühüm əhəmiyyət kəsb edir. Hesabat dövründə statistik məlumatların dərc olunması və yayılmasında informasiya vasitələrindən, radio və televiziya kanallarından geniş istifadə edilmişdir. 2012-ci ilin yekunu üzrə ölkənin rəsmi iqtisadi-statistik göstəricilərinə dair kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir. 2013-cü il ərzində statistika orqanları tərəfindən qəzet və jurnallarda 123 məqalə və 40 mətbu-məlumat dərc etdirilmişdir.

Göstərilənlərdən əlavə, rəsmi statistika istifadəçilərinin statistik məlumatlara olan tələbatının öyrənilməsi və ödənilməsinin qiymətləndirilməsi məqsədilə Dövlət Statistika Komitəsinin veb səhifəsində "onlayn" rejimdə istifadəçilər üçün 29 sualdan ibarət sorğu anketi yerləşdirilmişdir. 31.08.2013 tarixinə keçirilmiş sorğuda 610 nəfər iştirak etmişdir. Sorğuda iştirak edənlər dövlət idarəçiliyini və özəl müəssisələri təmsil edənlər, KİV nümayəndələri və fərdi şəxslər olmuşdur. Sorğunun nəticələrindən görmək olar ki, statistik fəaliyyətin bütün sahələri istifadəçilər üçün böyük maraq kəsb edir. Onların ən çox maraq göstərdiyi sahələr əmək bazarı, əhali və gender statistikası, milli hesablar, təhsil, elm və mədəniyyət, maliyyə və bank, sənaye sahələri olmuşdur. İstifadəçilərin əksəriyyəti statistik məlumatların əldə edilməsi mənbəyi kimi Dövlətstatkomun veb-səhifəsinə istinad etdiyini qeyd etmişdir.

İstifadəçilərlə işin bu qaydada təşkili, onların tələbatının daha operativ qaydada öyrənilməsinə və ödənilməsinə imkan vermişdir. Veb-səhifədə Dövlət Statistika Komitəsinin fəaliyyətini əks etdirən xəbərlər bölməsi daima yeniləşdirilir. Bu bölmədə Dövlət Statistika Komitəsi yeni hazırlanmış məcmuələr və metodoloji işlər haqqında, Komitənin mütəxəssislərinin iştirakı ilə statistika sahəsində əsas beynəlxalq hadisələrə dair məlumatlar yerləşdirilmişdir.

2013-cü ildə Dövlət Statistika Komitəsində keyfiyyətin idarə olunması və metaməlumatlar sisteminin yaradılmasına dair kompleks tədbirlər həyata keçirilmişdir. İSO 9001:2008 Keyfiyyətin idarə olunması standartı çərçivəsində siyasət və məqsədlər bəyan edilmiş, keyfiyyət üzrə Əlaqələndirmə şurası yaradılmış, rəhbərliyin keyfiyyət üzrə nümayəndəsi təyin edilmiş, keyfiyyətin idarə edilməsi sisteminin sənəd toplusu (keyfiyyət üzrə vəsait - I, II nəşrlər) hazırlanmış, bütün sahələr üzrə statistik proseslərin xəritələri işlənmiş və təsdiq edilmişdir. 2013-cü ilin yanvar ayından başlayaraq, Komitənin bütün şöbələrində daxili audit aparılmış, 1000-dən çox statistik göstəriciyə, 250-dən çox statistik hesabata dair metaməlumatlar və 23 adda əsas statistik məhsullara dair keyfiyyət məruzələri işlənib hazırlanmış, Komitənin rəsmi saytı tamamilə yenilənmiş və yeni interfeysdə istifadəçilərin istismarına verilmişdir. Görülmüş işlərin məntiqi nəticəsi olaraq, sınaq, təftiş və sertifikatlaşdırma sahəsində dünya liderlərindən olan "Bureau Veritas" şirkətinin yerli nümayəndəliyi tərəfindən kənar (xarici) audit təşkil edilmiş və 15 avqust 2013-cü il tarixdə "Bureau Veritas" şirkəti tərəfindən Dövlət Statistika Komitəsinə "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsi və İSO 9001:2008 standartı üzrə 3 il müddətinə sertifikat verilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Qazaxıstan Respublikasının Statistika Agentliyindən sonra MDB ölkələrinin statistika orqanları arasında İSO 9001:2008 sertifikatı almış ikinci, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları arasında birinci, sertifikat almış digər təşkilatlar ("Azərkosmos" ASC, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi SGS, "S&Q Mart Azerbaijan" şirkəti və Azərbaycan Dövlət İqtisad Universiteti) arasında isə beşinci yerdədir.

Dövlət Statistika Komitəsinin beynəlxalq əməkdaşlığı bir sıra qarşılıqlı əlaqə istiqamətləri çərçivəsində inkişaf etmişdir ki, bunlardan da ən əsası Azərbaycan statistika metodologiyasının və təcrübəsinin beynəlxalq standartlara daha da

uyğunlaşdırılması olmuşdur. Bu gün Dövlət Statistika Komitəsinin statistik məlumatları beynəlxalq təşkilatların statistika xidmətləri tərəfindən rəsmi qaydada istifadə olunur ki, bu da onların əsas beynəlxalq standartlara uyğunluğunu, tamlığı və doğruluğunun təsdiq olunmasının tanınmasını təsdiq edir. 2013-cü ildə Dövlət Statistika Komitəsi əməkdaşlıq çərçivəsində BMT və onun regional iqtisadi komissiyalarının, Avropa İttifaqının, BVF, BƏT, YUNİSEF, YUNESKO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT və bir sıra digər beynəlxalq təşkilatların və dünya ölkələrinin statistika xidmətləri ilə, Avrostat və MDB Dövlətlərarası Statistika Komitəsi ilə əlaqələri davam etdirmişdir. 2013-cü ildə Azərbaycan statistikasının inkişafına dünyanın müxtəlif ölkələrinin milli statistika xidmətləri ilə əməkdaşlıq da öz müsbət təsirini göstərmişdir. Belə əməkdaşlığın nəticəsi olaraq, qabaqcıl təcrübələri müfəssəl öyrənməklə, məsləhətlər şəklində yardım almaqla Azərbaycan statistikası müasirləşdirilmiş və daha da inkişaf etdirilmişdir. Hazırda Dövlət Statistika Komitəsi xarici tərəfdaşlarla 13 fəaliyyətdə olan sazişə malikdir. Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan və Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planında statistikaya həsr olunmuş tədbirlərin yerinə yetirilməsi sahəsində də müntəzəm işlər həyata keçirilmiş, 2013-cü ildə yerinə yetirilmiş işlər barədə İqtisadiyyat və Sənaye və Xarici İşlər nazirlikərinə müvafiq hesabatlar təqdim edilmişdir.

Turizm və əmək statistikasını əhatə edən üçüncü Tvinninq proqramı hazırlanaraq İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim olunmuşdur.

Hesabat ilində sığorta xidmətlərinin buraxılışının hesablanması və maliyyə hesablarının qurulmasına dair Çexiya Statistika İdarəsinin, sənaye məhsulu buraxılışının fiziki həcm indeksi və müvafiq istehsalçı qiymələri arasında uyğunsuzluqların araşdırılması və təshih edilməsinə dair Norveç Statistika Bürosunun iş təcrübəsi öyrənilərək əməli işdə istifadə olunmuşdur.

Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış “Azərbaycanın rəsmi statistikasının milli məlumatlarının beynəlxalq təşkilatların analoji məlumatlarına uyğunluğu haqqında” məruzə Rusiya Dövlət Statistikasının Federal Xidmətinin “Statistika məsələləri” jurnalında, “Elmi-tədqiqat məqsədləri üçün mikroməlumatlara giriş zamanı meydana gələn problemlər” və “Ətraf mühit və iqtisadi hesablar sisteminin tətbiqi, Azərbaycanın perspektivləri” məruzələri Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının bülletenində, “Statistik məlumatlar sisteminin yaradılması və inkişafı əsas məqsədlərdəndir”, “Ermənistanın sosial-demoqrafik vəziyyəti rəsmi statistik göstəricilərlə”, “Azərbaycanın sosial-iqtisadi inkişafı – dünyanın lider ölkəsi” məqalələri “Xalq” və “Respublika” qəzetlərində dərc edilmişdir. Azərbaycanın təcrübəsi haqqında materiallar nümunə kimi JODİ-nin (Məlumat təşəbbüsləri üzrə Birgə Təşkilatlar) təbii qaza dair məlumatların toplanması, tərtib və təqdim edilməsi haqqında Təlimatın “ən yaxşı təcrübələr” bölməsinə daxil edilmişdir.

Əvvəllər olduğu kimi, 2013-cü ildə də Dövlət Statistika Komitəsinin mütəxəssisləri beynəlxalq ekspert qruplarının fəaliyyətində fəal iştirak etmişlər. Dövlət Statistika Komitəsinin mütəxəssisləri yeni aktual istiqamətlər (ekoloji göstəricilər, statistik məlumatların istehsalı prosesinin modernləşdirilməsi, iqtisadi statistika, informasiya iqtisadiyyatı üzrə statistika məlumatlarının hazırlanması, miqrasiya ilə bağlı

məlumatların toplanması, saxlanması və birgə istifadəsi üzrə milli imkanların gücləndirilməsi, sosial statistika, keyfiyyətli məşğulluğun ölçülməsi, informasiya texnologiyaları) üzrə statistika sahəsində 9 beynəlxalq işçi və ya ekspert qrupunda öz fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirmişlər. Ekoloji göstəricilər üzrə BMT-nin Avropa İqtisadi Komissiyasının məqsədli işçi qrupundan 19.11.2013-cü il tarixində Dövlət Statistika Komitəsinin ünvanına daxil olmuş məktubda deyilir: "Biz, xüsusən, Azərbaycan, Belarus, Monteneqro nümayəndələrinə milli təcrübələrinin mübadiləsinə görə təşəkkür edirik!". Bu da ona dəlalət edir ki, bu gün Azərbaycan statistikası beynəlxalq statistikaya uyğundur və onun təkmilləşdirilməsində əlindən gələn köməyi əsirgəmir.

Son illərdə Dövlət Statistika Komitəsi tərəfindən böyük beynəlxalq konfrans və seminarların keçirilməsinə ev sahibliyi etmək ənənə şəklini almışdır. 2013-cü ilin 24-27 sentyabr tarixlərində Dövlət Statistika Komitəsi BMT-nin Enerji Statistikası üzrə Oslo Qrupunun 8-ci iclasına ev sahibliyi etmişdir. Bunlardan əlavə, Dövlət Statistika Komitəsinin 43 mütəxəssisi beynəlxalq təşkilatlar tərəfindən təşkil olunmuş 52 tədbirdə iştirak etmişdir.

2013-cü ildə yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əsasında statistik informasiyaların toplanması, işlənməsi, saxlanması və yayılması sistemi modernləşdirilmişdir. "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nın 2013-cü ildə yerinə yetirilmiş tədbirlərinin əsas istiqamətlərindən biri respondentlərə düşən statistik yükün azaldılması və statistik məlumat istifadəçiləri ilə aparılan işlərin keyfiyyətinin artırılması olmuşdur. İl ərzində məlumat bazasının strukturunun statistik registrə tam uyğunlaşdırılması sahəsində müəyyən işlər həyata keçirilmiş, təsnifatların aparılmasının proqram vasitələrinin təkmilləşdirilməsi işi davam etdirilmişdir.

Yerli statistika orqanlarının məlumat mübadiləsi imkanlarının artırılması, daxili məlumat şəbəkələrinin inkişaf etdirilməsi məqsədilə, daxili şəbəkələrin müasir proqram vasitələri ilə təmin edilməsi və internetə çıxış imkanlarının artırılması həyata keçirilmişdir.

Komitənin internet səhifəsinə daxil olmuş istifadəçinin istəyinə uyğun çoxölçülü (vaxt-indikator-ərazi bölgüsündə) cədvəlin qurulması imkanının yaradılması üçün Komitənin veb səhifəsindən əldə edilən məlumatlara çoxölçülü cədvəllər şəklində seçim imkanları yaradılmışdır.

Dövlət orqanları ilə rəsmi statistik məlumatların elektron mübadilə sisteminin yaradılması və təkmilləşdirilməsi və statistik registrin aktuallığının təmin edilməsi üçün proqram vasitələrində dəyişikliklərin edilməsi və proqram təminatının istismarının təşkili tədbirləri çərçivəsində bir çox dövlət orqanları ilə, o cümlədən Vergilər Nazirliyi ilə elektron məlumat mübadiləsinin təkmilləşdirilməsi məsələsinə yenidən baxılmış, işçi səviyyədə texniki görüşlər təşkil edilmişdir. Demoqrafiya üzrə statistik göstəricilər üçün bazanın təkmilləşdirilməsi və onların keyfiyyət və səmərəliliyinin artırılması məqsədilə Dövlət Statistika Komitəsinin Ədliyyə Nazirliyinin Qeydiyyat informasiya sisteminə qoşulması təmin olunmuşdur.

Nazirlər Kabinetinin 25.06.2012-ci il tarixli, 142 saylı "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə qərarının tələblərinə uyğun olaraq, "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nda və Dövlət Statistika Komitəsinin iştirak etdiyi digər dövlət proqramlarında icrası 2014-cü ildə nəzərdə tutulan tədbirlər planı"nın layihəsi "Elektron hökumət" portalında yerləşdirilmişdir.

Dövlət Statistika Komitəsinin "e-sənəd dövriyyəsi-kargüzarlıq" sisteminin inkişafı sahəsində əməli tədbirlər həyata keçirilmiş, sistemin uğurlu fəaliyyəti üçün proqram təminatına əlavələr edilmişdir.

Yerli və regional məlumat şəbəkələrinin inkişaf etdirilməsi və bu mərkəzlərin texniki vasitələrlə təmin edilməsi məqsədilə 2013-cü ildə 1 ədəd SERVER, mərkəzi aparatın və yerli statistika orqanlarının texniki imkanlarının artırılması üçün 98 ədəd fərdi kompyuter, 1 ədəd smart kompyuter, 3 ədəd noutbuk, sənəd dövriyyəsi sisteminin bütün funksiyalarının tətbiqinə nail olmağa imkan verən, hərtərəfli geniş parametrlərə malik 219 ədəd çap, skaner və surətçıxarma qurğusu və avadanlıqlar alınaraq quraşdırılmışdır.

İlkin statistik məlumatların qəbulu prosesində məlumatların keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə təshihedici prosedurların tətbiqinin təkmilləşdirilməsi məqsədilə cari ildə ilkin statistik məlumatların qəbulu prosesində keyfiyyətə nəzarət cədvəllərinin tətbiqi və cədvəllərin "onlayn" rejimində hesabatların elektron qəbulu prosesinə inteqrasiya edilməsi həyata keçirilmişdir.

2013-cü ildən etibarən Komitənin yeni saytı internet istifadəçilərinin istifadəsinə verilmişdir. Yeni veb-saytın istifadəçilərinə daha dolğun statistik məlumat bazası, təsnifatlar, e-xidmətlər, statistik lüğət, e-hesabatlar, e-kitabxana, "Google" axtarış imkanı və nəhayət, metaməlumatlar bölməsi təqdim edilir. Saytda həmçinin "Etik davranış qaydaları" bölməsi yaradılmışdır.

Statistik məlumat və metaməlumat mübadiləsi standartı olan SDMX üzrə 43 adda əsas statistik məhsula dair metaməlumatlar hazırlanmış, bazaya daxil edilmiş və istifadəçilərin istismarı üçün saytda yerləşdirilmişdir.

2013-cü ildə Sumqayıt və Mingəçevir şəhər statistika idarələrinin inzibati binalarının tikintisi başa çatdırılmış və istifadəyə verilmişdir.

İl ərzində Gəncə, Sumqayıt və Mingəçevir şəhər statistika idarələrinin məlumat şəbəkələri yenidən qurulmuş və məlumatın mübadilə imkanlarının artırılması ilə yanaşı, statistika sistemində çalışan bütün mütəxəssislərin sürətli internetə çıxışı təmin olunmuşdur.

Keçən il kadr işlərinin təkmilləşdirilməsinə, dövlət statistika orqanlarının iş şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə təşkil edilmiş seminarlarda Aparatın və yerli statistika orqanlarının 597 mütəxəssisi öz ixtisas və biliklərini artırmışdır.